# *Kuba mediası:* "COP29 ciddi nəticələrlə yadda qaldı"

**Kubanın "Trabajadores" qəzetində jurnalist Arsenio Rodriqez Perezin Azərbaycanın Kubadakı səfiri Ruslan Rzayev ilə "COP29: İqlim dəyişikliyinin azaldılmasına dair sazişlər" başlıqlı müsahibəsi dərc edilib.**

AZƏRTAC-ın məlumatına görə, müsahibədə R.Rzayev Azərbaycanın COP29 kimi mötəbər beynəlxalq tədbirə uğurla evsahibliyi etdiyini, cəmi 11 ay ərzində ölkəmizin böyük miqyaslı belə bir tədbirə çox yaxşı hazırlaşdığını və konfransın ciddi nəticələrlə yadda qaldığını bildirib. Səfir konfransda iştirak etmək üçün 197 ölkədən 76 mindən çox insanın qeydiyyatdan keçdiyini, 80-dən yuxarı dövlət və hökumət başçılarının, eləcə də beynəlxalq təşkilatların rəhbərlərinin iştirak etdiyini vurğulayıb.




Səfir müsahibədə həmçinin Azərbaycanın sədrliyi ilə keçilən müzakirələrdə nəzərəçarpacaq nailiyyətlərin əldə olunduğunu, bu xüsusda İtki və Zərər Fondunun işə salınması, fondun 2025-ci ildə maliyyə vəsaitini paylaşmağa hazır olmasını vurğulayıb. Qeyd olunub ki, Azərbaycanın COP29-a sədrliyi inkişaf etməkdə olan ölkələrə hər il 1,3 trilyon ABŞ dolları həcmində iqlim maliyyəsini təmin edəcək. Bunun üçün yeni öhdəlik olan Bakı Maliyyə Məqsədi razılaşması inkişaf etməkdə olan ölkələrə 2035-ci ilə qədər hər il ən azı 300 milyard ABŞ dolları vəsaitinin verilməsini ehtiva edir.

R.Rzayev Azərbaycanın COP29-un sədri qismində 14 iqlim təşəbbüsü irəli sürməsindən, habelə öncəki və sonrakı ev sahibi ölkələr arasında əməkdaşlığı gücləndirmək məqsədilə üçlük ("Troyka") formatının yaradılmasından danışıb.

Azərbaycan. - 2025.- 25 fevral (№ 42).- S.8.